*22 noyabr Ədliyyə İşçilərinin Peşə Bayramı Günüdür*

# Ədliyyə işçiləri peşə bayramını şanlı qələbəmizlə qeyd edir

**Azərbaycanı müstəqilliyə aparan yol nə qədər keşməkeşli və çətin olsa belə, bu tarixi həqiqət xalqımızda qürur və fəxarət hissi doğurur: 1918-ci il mayın 28-də müsəlman Şərqində müstəqilliyini bəyan edən parlamentli respublika olmuş Azərbaycan tarixən can atdığı, mücadilə apardığı müstəqillik idealına qovuşmuşdur. Regionda ilk demokratik, hüquqi və dünyəvi dövlətin Azərbaycanda elan edilməsi xalqımızın zəngin dövlətçilik ənənələrinə malik olmasının əyani təsdiqidir.**

Ötən əsrin əvvəllərində çar Rusiyasında cərəyan edən ictimai-siyasi proseslər, imperiya daxilində bir araya gətirilmiş xalqların azadlıq uğrunda mübarizəyə qalxması 1918-ci ilin mayında Azərbaycana öz istiqlaliyyətini elan etmək imkanı yaratmışdır.

Müasir Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin bəyan etdiyi kimi, əgər XX əsrin əvvəllərində xalqımız milli azadlıq, dövlət müstəqilliyi yolunda ilk dəfə böyük addım atmışdısa, XX əsrin sonunda milli azadlığa, dövlət müstəqilliyinə tam nail olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti ilk gündən müstəqilliyi qoruyaraq inkişaf etdirməyi, səmərəli sosial-iqtisadi islahatların həyata keçirilməsi yolu ilə xalqın firavan həyat tərzinə nail olmağı, hər bir fərdin qanuni maraq və mənafeyinin müdafiəsində dayanmağı qarşıda mühüm vəzifələr kimi müəyyənləşdirmişdir. Cümhuriyyətin yaradıcısı olmuş böyük ziyalılar hüquqi və demokratik dövlət quruculuğu yolunda ədliyyə və məhkəmə-hüquq islahatlarının da zəruriliyini ilk gündən düzgün dəyərləndirərək bu istiqamətdə sistemli tədbirlər həyata keçirmişlər. Azərbaycan ədliyyəsinin şanlı tarixi 1918-ci il mayın 28-dən - Azərbaycan Xalq Cümhuriyyətinin elan edildiyi gündə Ədliyyə Nazirliyinin təsis edilməsi ilə başlamış, təcrübəli dövlət xadimi Xəlil bəy Xasməmmədov ilk ədliyyə naziri təyin olunmuşdur. Həmin il noyabrın 22-də nazirliyin Əsasnaməsi təsdiq edilmiş, funksiya və səlahiyyətləri müəyyən edilmişdir. Ədliyyə Nazirliyi o vaxtlar şəraitin çətinliyinə, imkanların və kadrların məhdudluğuna baxmayaraq, ölkənin ədliyyə sisteminin formalaşdırılması və inkişafı naminə xeyli iş görmüşdür. İlk növbədə ədliyyə, məhkəmə və istintaq strukturları bərpa edilmiş, respublikada qayda-qanunun bərqərar olması, yeni hüquq sisteminin təşkili ilə bağlı əhəmiyyətli qərarlar qəbul olunmuşdur. Eyni zamanda, zəruri hüquqşünas kadrların hazırlanması və əhalinin hüquqi maarifləndirilməsi istiqamətində mühüm addımlar atılmışdır. Fəaliyyəti unudulmaz hadisələrlə yaddaqalan Ədliyyə Nazirliyinin həm də çətin və mürəkkəb dövrü olmuşdur. 1920-ci ildə Cümhuriyyətin süqutundan sonra milli dövlətçiliyin əsas sütunlarından olan Ədliyyə Nazirliyi ləğv edilərək əvəzində Xalq Ədliyyə Komissarlığı yaradılmış, səlahiyyətləri xeyli məhdudlaşdırılmış, iki dəfə ləğv olunaraq yenidən təsis edilmiş, funksiyaları ayrı-ayrı vaxtlarda prokurorluq, məhkəmə orqanlarına verilmiş, bu hallar müəyyən müddət onun inkişafına ciddi əngəllər törətmişdir.

Ədliyyə Nazirliyinin yenidən və əsaslı surətdə təsis edilməsi, ədliyyə işinin təkmilləşdirilməsi məhz 1970-ci ilə - ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyə gəldiyi dövrə təsadüf edir. Həmin dövrdən etibarən Ədliyyə Nazirliyi sabit fəaliyyət göstərərək məhkəmə orqanlarına təşkilati rəhbərliyi həyata keçirmiş, əhaliyə hüquqi yardımı yaxşılaşdırmış, notariat fəaliyyətinin və məhkəmə ekspertizalarının aparılmasını təmin etmiş, ümumiyyətlə, onun gələcək inkişafı üçün əlverişli şərait yaradılmışdır. Xüsusi vurğulamaq lazımdır ki, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra da ulu öndər Heydər Əliyev Ədliyyə Nazirliyinin inkişafı, hüquqi dövlətdə onun layiq olduğu yerini tutması üçün əlindən gələni əsirgəməmiş, hüquqi dövlətin yaradılması baxımından ədliyyə orqanlarının fəaliyyətinin gücləndirilməsini zəruri saymışdır. 1995-ci ilin 12 noyabrında ilk Milli Konstitusiyanın qəbulundan sonra respublikamızda məhkəmə-hüquq islahatları ilə yanaşı, ədliyyə orqanlarının fəaliyyətinin keyfiyyətcə yeni dövrün tələblərinə uyğun təkmilləşdirilməsi istiqamətində mühüm addımlar atılmışdır. Müdrik liderin rəhbərliyi ilə aparılmış hüquq islahatları çərçivəsində qəbul edilmiş çoxsaylı qanunlara, imzalanmış fərmanlara əsasən Ədliyyə Nazirliyinin üzərinə yeni vəzifələr qoyulmuşdur. Məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları xidməti təsis edilməklə yanaşı, keçmiş MDB-də ilk olaraq Azərbaycanda istintaq təcridxanaları nazirliyin tərkibinə verilmişdir. Ədalət mühakiməsi əleyhinə olan və bəzi digər cinayətlərin ibtidai istintaqının aparılması, bütün qeyri-tibbi məhkəmə ekspertizalarının həyata keçirilməsi nazirliyə həvalə edilmişdir. Azərbaycan Respublikası adından xarici dövlətlər və beynəlxalq təşkilatlarla hüquqi sahədə əməkdaşlıq üzrə müqavilələrin bağlanması, onların icrasının təmin edilməsi, cinayət işləri üzrə hüquqi yardım göstərilməsi, o cümlədən ekstradisiya və digər məsələlərin həlli Ədliyyə Nazirliyinə tapşırılmışdır.

Bu islahatları son 17 ildə inamla davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyev hüquqi dövlət quruculuğu prosesində müstəsna xidmətləri olan Ədliyyə Nazirliyinin fəaliyyət dairəsinin, statusunun, cəmiyyətdəki rolunun və mövqeyinin əhəmiyyətli dərəcə yüksəlməsini praktik addımları ilə təmin etmişdir. Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin “Ədliyyə orqanlarının inkişafı haqqında” 17 avqust 2006-cı il tarixli Fərmanının əhəmiyyətini xüsusi vurğulamaq lazımdır. Fərman əsasında bölgələrdə regional ədliyyə şöbələrinin və rayon (şəhər) qeydiyyat şöbələrinin yaradılması yerli əhalinin bu orqanlara müraciət imkanlarını asanlaşdırmış, habelə regionların sosial-iqtisadi inkişafına, xüsusilə yerli hüquqşünasların işlə təminatına xidmət etmişdir.

**“Hər bir şəxs Konstitusiyaya və qanunlara dönmədən əməl etməlidir. Ondan irəli gələn dövlət və cəmiyyət qarşısında vəzifələri layiqincə yerinə yetirməli, ölkəmizdə gedən demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesində yaxından iştirak etməlidir”.**

**Heydər ƏLİYEV,**
**Ümummilli lider.**

Bundan əlavə, 18 aprel 2006-cı il tarixli “Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə”, 26 may 2006-cı il tarixli “Ədliyyə orqanlarında qulluq keçmə haqqında” Azərbaycan Respublikasının Qanunu, 2009-cu il 6 fevral tarixdə təsdiqlənmiş “Azərbaycan ədliyyəsinin inkişafına dair 2009-2013-cü illər üçün Dövlət Proqramı” və digər sənədlər Azərbaycan ədliyyə sisteminin müasirləşdirilməsini, onun cəmiyyət həyatında mühüm dövlət təsisatına çevrilməsini təmin etmişdir. “Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə”yə uyğun olaraq” Nazirliyə ədliyyə sahəsində vahid dövlət siyasətini və tənzimlənməsini həyata keçirən hüquq-mühafizə orqanı statusu verilmiş, onun fəaliyyət istiqamətləri genişlənmiş, konkret hüquq və vəzifələri müəyyən edilmişdir. Ədliyyə sistemində islahatların mühüm istiqamətlərindən biri kimi son 17 ildə məhkəmə orqanlarının fəaliyyətinin müasirləşdirilməsi və təkmilləşdirilməsi tədbirləri də xüsusi qeyd olunmalıdır. Ədalət mühakiməsinin səmərəsinin və məhkəmə hakimiyyətinin müstəqilliyinin artırılmasına xüsusi diqqət yetirən dövlətimizin başçısı cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq ölkədə məhkəmə sisteminin müasirləşdirilməsi, mövcud nöqsanların aradan qaldırılması üzrə ardıcıl tədbirlər görülmüşdür. Məhkəmə fəaliyyətini tənzimləyən qanunvericilik bazası Avropa Şurası ekspertləri ilə birgə ətraflı tədqiq edilmiş və onun daha da təkmilləşdirilərək beynəlxalq standartlara tam uyğunlaşdırılması işinə başlanılmışdır. Aparılmış islahatlar nəticəsində yeni təsisat - məhkəmə hakimiyyətinin özünüidarə orqanı olan və əsasən hakimlərdən ibarət formalaşdırılmış Məhkəmə-Hüquq Şurası yaradılmışdır. Demokratik cəmiyyətlərdə mühüm yer tutan bu təsisatın yaradılmasında əsas məqsəd məhkəmələr və hökumət arasında yeni qurum yaratmaqla məhkəmə sisteminin müstəqilliyini gücləndirmək, məhkəmələrin özünüidarə funksiyalarını gücləndirmək olmuşdur. Hakimlərin fəaliyyətinin qiymətləndirilməsi, iş yerinin dəyişdirilməsi, vəzifədə irəli çəkilməsi, intizam məsuliyyətinə cəlb edilməsi və onların fəaliyyəti ilə bağlı digər məsələlər bu orqanın səlahiyyətinə aid edilmişdir. “Ədliyyə sisteminin müasirləşdirilməsi layihəsi” çərçivəsində, həmçinin, Məhkəmə-Hüquq Şurası, Hakimlərin Seçki Komitəsi, Konstitusiya Məhkəməsi, Ali Məhkəmə, habelə Ədliyyə Nazirliyinin qeydiyyat qurumları ən müasir İKT-lərlə təchiz olunmuş, “Qeyri-kommersiya hüquqi şəxslər” üçün avtomatlaşdırılmış qeydiyyat informasiya sistemi, Bakıda və bölgələrdə hüquqi məsləhət mərkəzləri yaradılmışdır. Ölkə Prezidenti möhtərəm İlham Əliyevin bir sıra məhkəmə binalarının açılışında şəxsən iştirak etməsi məhkəmə hakimiyyətinin müasirləşdirilməsinə verilən önəmin əyani təzahürü olmuşdur.

Azərbaycan Prezidentinin 2019-cu il 19 iyul tarixli Sərəncamı ilə mövcud inzibati-iqtisadi məhkəmələr ləğv edilməklə Naxçıvan Muxtar Respublikasında, Bakı, Gəncə, Sumqayıt, Şirvan və Şəkidə yeni Kommersiya və ayrıca İnzibati məhkəmələr yaradılıb. Beləliklə, sahibkarlıq fəaliyyəti ilə əlaqədar olan mülki mübahisələrə yeni yaradılan kommersiya məhkəmələri, sahibkarların bütün dövlət qurumları, inzibati orqanlar ilə mübahisələrinə, o cümlədən vergi və gömrük ödənişləri, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi ilə bağlı yaranan mübahisələrə isə inzibati məhkəmələr baxacaq. 2020-ci il yanvarın 1-dən fəaliyyətə başlayan kommersiya və inzibati məhkəmələr bu sahədə məhkəmə statistikasının təhlil edilməsində və məhkəmə təcrübəsinin öyrənilməsində də mühüm rol oynayacaq.

Bu islahatların mükəmməl bir şəkildə həyata keçirilməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın da uğurlu fəaliyyətini qeyd etməliyik. Belə ki, Azərbaycanda cəzaların icrası siyasətinin təkmilləşdirilməsində, humanizm prinsiplərinin bərqərar olmasında, insan hüquqlarının dövlət qurumları ilə yanaşı, eyni zamanda vətəndaş cəmiyyəti institutları tərəfindən də qorunmasında, bu sahədə faydalı ictimai təşəbbüslərin irəli sürülməsində onun da böyük xidmətləri vardır. Məhz onun təşəbbüsü ilə qəbul edilmiş 4 amnistiya aktı əsasında on minlərlə məhbus həyatın ən böyük nemətlərindən olan azadlığa qovuşmuşdur. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva insan amilinin yüksəlişinə xidmət edən bu islahatların dinamik və yüksək keyfiyyətlə reallaşdırılmasına, ümumilikdə dövlət idarəçiliyinin innovativ yanaşma əsasında müasirləşdirilməsinə sanballı töhfələr verir.

Son illər ölkəmizdə məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi istiqamətində də mühüm addımlar atılır. Belə ki, 2019-cu il aprelin 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən “Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” imzalanan Fərmanda məhkəmələrin işinin müasir tələblərə uyğun qurulması, onların fəaliyyətində şəffaflıq və açıqlıq prinsiplərinin rəhbər tutulması, infrastrukturun təkmilləşdirilməsi, məhkəmə qərarlarının icra mexanizmlərinin müasirləşdirilməsi, hakim və məhkəmə aparatı işçilərinin sosial müdafiəsinin yaxşılaşdırılması istiqamətində verilən tövsiyə və tapşırıqlar məhkəmə-hüquq sistemində institusional potensialın gücləndirilməsinə yönəlmiş ardıcıl tədbirlərin davamı olub.

Ötən dövr ərzində ölkəmizin məhkəmə-hüquq sistemi üçün müstəsna əhəmiyyət daşıyan dövlət sənədinin icrası çərçivəsində həyata keçirilmiş mühüm dəyişikliklərin, eləcə də yeni müstəvidə dəyişən hüquqi konfiqurasiyanın şahidi oluruq. Dəyişikliklərin digər mühüm istiqaməti ədalətli məhkəmə araşdırılması hüququnun təmin edilməsində xüsusi əhəmiyyət kəsb edən məhkəmə ekspertizası fəaliyyətini əhatə edib, özəl məhkəmə ekspertləri ilə bağlanan müqavilə əsasında məhkəmə ekspertizasını sifariş etmək imkanı təsbit olunub. Məhkəmələrdə baxılan işlərin hakimlərin sayına nisbətdə proporsional olmaması nəzərə alınaraq, Fərmanla hakimlərin sayı 200 vahid artırılaraq 800 vahidə çatdırılıb. Təkmilləşdirilmiş prosedurlar əsasında hakimliyə namizədlərin seçimi prosesi nəticəsində hakim ştatlarının komplektləşdirilməsi məhkəmələrdə iş yükünün azalmasına, işlərə daha keyfiyyətli baxılmasına xidmət edəcəkdir. Qeyd edilən Fərmanda nəzərdə tutulan ideya və prinsiplərin dövlət qurumları tərəfindən yüksək peşəkarlıqla reallaşdırılması və bu istiqamətdə tədbirlərin ardıcıl olaraq davam etdirilməsi təkcə məhkəmə-hüquq sisteminin deyil, ölkəmizin ictimai həyatının bütün sahələrinin inkişafında mühüm əhəmiyyət daşımaqla yeni mərhələnin başlanğıcı olub.

Xalqımızın tarixinə qəhrəmanlıq salnaməsi yazılan indiki bir vaxtda respublika Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyətli rəhbərliyi sayəsində ordumuzun qazandığı uğurlara da toxunmaq istərdim. Ermənistan silahlı qüvvələrinin hərbi təcavüzlərinə cavab vermək üçün sentyabrın 27-dən başlayan və 44 gün davam edən Vətən müharibəsi Azərbaycanın qələbəsi ilə başa çatdı. Azərbaycan və Rusiya prezidentlərinin, Ermənistanın baş nazirinin noyabrın 10-da imzaladığı birgə Bəyanata əsasən, Ermənistan silahlı qüvvələrinin birləşmələri Kəlbəcər, Laçın və Ağdam rayonlarının ərazilərini qeyd-şərtsiz tərk etməlidir. Kəlbəcərin tərk edilməsi prosesinin noyabrın 15-ə qədər başa çatması nəzərdə tutulurdu, lakin Ermənistan tərəfi əlavə 10 gün də vaxt istədi və bununla bağlı xahişi Rusiya tərəfi Azərbaycana bildirdi. Azərbaycan tərəfi isə humanistlik göstərərək daha 10 gün vaxt verdi. Lakin göründüyü kimi, Azərbaycanın bu humanist addımına baxmayaraq ermənilər öz barbarlıqlarını davam etdirirlər. Kəlbəcəri tərk edərkən evləri yandırırlar, infrastrukturu məhv edirlər, ağacları kəsirlər, meşələrə od vururlar, evləri yandırırlar.

Ancaq elə fikirləşirlər ki, bu vəhşilikləri cavabsız qalacaq. Respublika Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi ermənilərin 30 il ərzində işğal olunmuş ərazilərimizdə törətdiyi vəhşiliklər, evlərə, mülki obyektlərə, təbiətə vurduğu ziyanlar hamısı qiymətləndiriləcək və onlardan təzminat tələb olunacaq. Necə ki, Azərbaycan öz torpaqlarını işğaldan azad etdi, eləcə də vurulmuş ziyanın əvəzini ödətdirəcək. Rusiya, Azərbaycan və Ermənistan rəhbərlərinin imzaladığı bəyanatın bütün maddələrində də ölkəmizin dövlətçilik maraqları tam qətiyyətlə qorunub. Bəyanatın bütün bəndlərində Azərbaycan dövlətinin və xalqının arzu və istəkləri əksini tapıb. Müharibədən sonra isə şərtləri qalib tərəf diktə edir. Tərəflər arasında imzalanan bəyanatın şərtləri bu baxımdan Azərbaycanın maraqlarına tam uyğundur.

Qələbəmizin rəsmi təsdiqi olan bəyanatın xüsusilə diqqətçəkən bəndlərindən biri də Azərbaycanın əsas hissəsinin quru yolu ilə Naxçıvanla birləşdirilməsini nəzərdə tutur. Qeyd etmək lazımdır ki, bu çox böyük uğur və tarixi qələbədir. Çünki, iki əsrdə Azərbaycanın belə imkanı, belə bir üstünlüyü olmayıb. Naxçıvan əsrlər boyu blokadada yaşayıb. Amma indi vəziyyət tamamilə dəyişib, bölgədə yeni dövr başlayıb. Bu uğur da birbaşa olaraq Prezident, Ali Baş Komandan İlham Əliyevin adı ilə bağlıdır. Çünki Ermənistanı bu güzəştə getməyə İlham Əliyev məcbur edib. Düşmənin belini qıran, nəfəsini kəsən dəmir yumruq isə Azərbaycan xalqının birliyinin əbədi rəmzidir.

Qarşıdakı bir neçə ildə Laçın dəhlizində həyata keçiriləcək sülhməramlı missiyada Rusiya ilə yanaşı, Türkiyə də iştirak edəcək. Laçın dəhlizinin təhlükəsizliyi Azərbaycan tərəfindən təmin olunacaq. Proseslər Azərbaycan dövlətinin nəzarəti altında olacaq. Bu onu göstərir ki, Azərbaycanın razılığı olmadan Dağlıq Qarabağla bağlı heç bir qərar qəbul edilə bilməz. Hazırda Şuşa şəhəri də daxil olmaqla Dağlıq Qarabağın böyük bir hissəsi Azərbaycan ordusunun nəzarəti altındadır. İnzibati ərazisi böyük olan Ağdam, Laçın və Kəlbəcərin də bu günlərdə qan tökülmədən geri qaytarılması Azərbaycan tərəfinin böyük uğurudur. Bu rayonların azad edilməsi Dağlıq Qarabağa gedən bütün yolların, strateji yüksəkliklərin, kommunikasiya xətlərinin tamamilə Azərbaycanın nəzarətində olması deməkdir.

Qazanılan qələbə Prezident İlham Əliyevin xalqımızın yüksək etimadını uğurlu fəaliyyəti ilə doğrultduğunu və dövlət başçısı ətrafında sıx birləşdiyimizi əyani surətdə təsdiqləyir. Şəki Rayon Məhkəməsinin kollektivi 22 noyabr peşə bayramı gününü tarixi qələbələrlə qarşılamaqdan qürur duyur və “Qarabağ Azərbaycandır” devizi altında daha böyük uğurlara imza atacağımızı əminliklə bildirir.

**Ceyhun ƏHMƏDOV,**
**Şəki Rayon Məhkəməsinin sədri.**

# İşğaldan azad olunmuş ərazilərimizdə ədliyyə qurumları öz peşə fəaliyyətlərini uğurla icra edəcəklər

**Azərbaycan dövlətçiliyinin inkişaf tarixində ədliyyə orqanlarının sabit fəaliyyəti təmin edilmiş və onun gələcək inkişafı, milli kadrların yetişməsi üçün əlverişli zəmin yaranmışdır. Ədliyyə Nazirliyinin mühüm bir qurum olaraq müstəqil hüquq siyasətinin formalaşmasında iştirakı isə, əlbəttə, Azərbaycanın XX əsrin sonunda yenidən müstəqillik qazanmasından və xüsusilə, ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra başlamışdır. Ümummilli liderimizin Azərbaycan ədliyyəsinə xüsusi diqqət və qayğısı ölkəmizin müstəqillik illərində də davam etmiş, hüquq sistemində inqilabi-demokratik yeniliklərə səbəb olan məhkəmə-hüquq islahatı həyata keçirilmiş, ədliyyə işi müasir tələblərə uyğunlaşdırılmışdır.**

Ədliyyə Nazirliyinin yenidən yaradılması və onun təkmil bir struktur kimi formalaşması ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrə təsadüf edir. Dahi rəhbərin ölkəmizin ədliyyəsinə qayğısı dövlət müstəqilliyimizi bərpa etdikdən sonra da davam etmişdir. Bu illər ərzində ədalət mühakiməsinin beynəlxalq standartlara uyğun həyata keçirilməsi üçün Ədliyyə Nazirliyinin tərkibində məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları xidməti təsis edilmiş, cəzaçəkmə yerləri və istintaq təcridxanaları nazirliyin tabeliyinə verilmiş, istintaq idarəsi yaradılaraq ədalət mühakiməsi əleyhinə olan bir sıra cinayətlərin ibtidai istintaqının aparılması Ədliyyə Nazirliyinə həvalə edilmiş, yeni yaradılmış bələdiyyələrlə işin aparılması və onlara metodoloji yardım göstərilməsi, daşınmaz əmlakın dövlət reyestrinin aparılması və s. məsələlər Ədliyyə Nazirliyinə tapşırılmışdır. Həmçinin məhkəmələrin maddi-texniki təchizatı üzrə müəyyən işlər görülmüş, bir sıra xarici dövlətlər və nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlıq haqqında müqavilə və sazişlər imzalanaraq nazirliyin beynəlxalq əlaqələri genişləndirilmiş, yüzlərlə qanun və digər normativ-hüquqi aktların layihələri hazırlanmış, ekspertizalar keçirilərək müvafiq rəylər verilmiş, əhaliyə hüquqi yardım yaxşılaşdırılmış, dövlət qeydiyyatı fəaliyyəti geniş həyata keçirilmişdir. Heydər Əliyevin Azərbaycan Ədliyyəsinə göstərdiyi yüksək etimadın, xüsusi diqqət və qayğının bariz təzahürü ədliyyə işçilərinin peşə bayramı gününün müəyyən edilməsidir. Köklü məhkəmə-hüquq islahatlarının ilk illərində ədliyyə işçilərində və hakimlərdə mənəvi stimul yaradılması məqsədilə onların peşə bayramı gününün müəyyən edilməsinə təşəbbüs göstərilərək bu məsələ Ədliyyə Nazirliyinin Kollegiyasının, Məhkəmə-Hüquq Şurasının müzakirəsinə çıxarılmış və 22 noyabrın - 1918-ci ildə Azərbaycan Demokratik Respublikası Ədliyyə Nazirliyinin Əsasnaməsinin təsdiq edildiyi günün, ədliyyə işçilərinin peşə bayramı günü kimi təsis edilməsi üçün ulu öndərə müraciət olunması barədə qərar qəbul edilmişdir. 22 noyabrın Ədliyyə İşçilərinin Peşə Bayramı Günü kimi müəyyən edilməsi barədə dahi öndər Heydər Əliyevin 11 noyabr 2000-ci ildə imzaladığı Sərəncam ədliyyə işçilərinə verilən ən yüksək qiymət olmaqla yanaşı, tarixi irsin qorunmasına xidmət etmişdir.

Müasir Azərbaycanın memarı və qurucusu olan Heydər Əliyevin təşəbbüsü ilə başlanan hüquqi dövlət quruculuğu, məhkəmə-hüquq islahatları prosesi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən bu gün uğurla davam etdirilir. Ölkədə həyata keçirilən effektiv hüquqi islahatları dövrün tələblərinə uyğun yeni çalarlarla zənginləşdirən cənab Prezident qısa dövr ərzində qəbul etdiyi praqmatik qərarlarla, habelə obyektiv reallıqdan irəli gələn addımları ilə ölkəmizin dinamik yüksəlişini təmin etmiş və onun inkişaf mexanizminin daha da çevikliyinə, işləkliyinə nail olmuşdur. Möhtərəm Prezidentimizin ədliyyə sisteminə göstərdiyi diqqət və qayğının əyani təzahürü olaraq ədliyyə fəaliyyətinin normativ-hüquqi əsasları təkmilləşdirilmiş, 2006-cı il aprel ayının 18-də ölkə Prezidenti tərəfindən nazirliyin yeni Əsasnaməsi təsdiq olunaraq ona hüquq-mühafizə orqanı statusu verilmişdir.

Həmçinin qeyd etmək istəyirəm ki, bu gün sevincimizin həddi-hüdudu yoxdur. Xalqımızın nəhayət ki, 30 illik həsrətinə son qoyuldu. Ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında aparılan haqlı mübarizəmiz Şuşanın işğaldan azad olunması ilə bitdi. Gücsüz və aciz Ermənistanın Rusiya Federasiyasına rəsmən müraciət etməsi Rusiyanın bilavasitə iştirakı ilə Azərbaycan-Ermənistan arasında doqquz bəndi özündə əks etdirən bəyanatın imzalanması ilə nəticələndi. 30 ildən sonra Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu xalqımıza qürur və şərəf hissi yaşatdı. Belə ki, bu zəfərlə Dağlıq Qarabağın Azərbaycan torpağı, beynəlxalq səviyyədə tanınan ərazimiz olduğu bir daha öz təsdiqini tapdı. Bu gün Azərbaycan Qarabağa qovuşdu, tarixi zəfərə imza atdı, işğalçı Ermənistana layiq olduğu yer göstərildi. Bu qələbəni, zəfəri bizlərə yaşadan isə ümummilli lider Heydər Əliyev siyasi kursunun layiqli davamçısı olan Prezident İlham Əliyevin qətiyyəti, siyasi iradəsidir. “Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi” - deyən Ali Baş Komandan vədinə əməl etdi. Prezident İlham Əliyevin noyabrın 8-də Şuşanın azad edilməsi xəbərini xalqa elan edərək həyatımıza gətirdiyi qürur, sevinc bütün tarixə dolan fəxarət hissidir, ömrümüzü bəzəyən, dövlətimiz var olduqca bizimlə birgə əbədi olacaq xoşbəxtlikdir.

Rəşadətli ordumuz Ali Baş Komandanımızın rəhbərliyi ilə tariximizin saf incisini düşmən tapdağından təmizləməklə bizi bir ömürlük nəsibimizə yetirdi. 28 ildir sinəmizdə qövr edən Şuşa yarasına məlhəm qoydu. Hər birimizə sözlə ifadə edilməsi mümkünsüz olan sevinc payı bağışladı.

Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi ilə işğalçı Ermənistana, bu ölkənin təcavüzkar siyasətinə dəstək olan faşist xislətli dünya ermənilərinə və onların havadarlarına, tarix boyu bizə qarşı törədilmiş erməni vəhşiliklərinə cavab kimi böyük bir dərs verdi.

Azərbaycan Prezidenti cənab İlham Əliyev noyabrın 10-da xalqa müraciətində demişdir: “Bu bəyanat bizim şanlı qələbəmizdir. Şadam ki, bu gün bu müjdəni Azərbaycan xalqına verirəm. Hesab edirəm ki, bu bəyanatın imzalanmasının səbəblərindən biri də dünən qeyd etdiyimiz parlaq qələbəmizdir, tarixi qələbəmizdir, Şuşanın işğaldan azad edilməsidir, Şuşa Qarabağın tacıdır! Şuşanın azad edilməsi həm böyük siyasi, həm böyük strateji, eyni zamanda, çox böyük mənəvi məna daşıyır. Biz Şuşaya qayıtdıq, biz Şuşanı qaytardıq, biz Şuşada yaşayacağıq və işğaldan azad edilmiş digər bütün torpaqlarda həyat qaynayacaq. İnsanlar o torpaqlara qayıdacaq, orada yaşayacaq, insanlarımızın 30 illik həsrətinə son qoyulur. Hesab edirəm ki, bu bəyanatın imzalanmasının səbəbi noyabrın 9-da - Dövlət Bayrağı Günündə bizim növbəti şanlı hərbi qələbəmiz olub. Çünki noyabrın 9-da 72 yaşayış məntəqəsini Azərbaycan Ordusu işğalçılardan azad edib. Şuşanın azad edilməsi, noyabrın 9-da 72 yaşayış məntəqəsinin azad edilməsi və sentyabrın 27-dən bu günə qədər 300-ə yaxın yaşayış məntəqəsinin azad edilməsi ilə Ermənistan ordusunun belini qırmışıq. Paşinyan məcbur olub bu bəyanata öz imzasını atır. Amma çox miskin, çox acınacaqlı durumda. Mən isə böyük fəxarət və sevinc hissi ilə bu bəyanata öz imzamı atmışam. Çünki bu bəyanat uzun illər davam edən işğala son qoyur. Bu bəyanat imkan verir ki, hələ də işğal altında olan digər rayonlarımızı - Ağdam, Laçın, Kəlbəcər rayonlarını qan tökülmədən qaytaraq. Qısa bir müddət qoyulur, bu ayın sonuna qədər bu rayonlar bizə qaytarılır. Bu, böyük xoşbəxtlikdir”.

Vətən müharibəsində qazanılan parlaq qələbə, işğalçı Ermənistanın tam şəkildə kapitulyasiyaya uğradılması azərbaycanlılar haqqında məğlub xalq sindromunu sındırdı, xalqın inamını özünə qaytardı. Bütün dünya gördü ki, Azərbaycan xalqı heç vaxt məğlubiyyətlə barışmayacaq və gec-tez öz amalına qovuşacaqdır. Əlbəttə, müharibənin qələbə ilə başa çatmasını şərtləndirən bir sıra fundamental amilləri sadalamaq mümkündür. Prezident İlham Əliyevin son 17 ildə həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olmasının ən başlıca səbəbidir. Vətən müharibəsindəki parlaq qələbəmizin mənbəyində dayanan əsas amillərdən biri isə cəmiyyətimizin monolitliyi və həmrəyliyidir. Ölkəmizdəki güclü Prezident-xalq-ordu vəhdəti xarici təzyiqləri dəf etməyə və müharibəni qələbə ilə başa çatdırmağa imkan verdi. 30 illik münaqişəni 44 günə sona çatdıran bu qısa müharibə dünya hərb tarixinə də misli görünməmiş savaş kimi düşdü. Azərbaycan Ordusunun gücünü, Azərbaycan xalqının qüdrətini bəşəriyyətə sübut etdi. Ona görə 44 günlük qəhrəmanlıq savaşımız tarix boyu şanlı qürur mənbəyimiz olaraq qalacaqdır. Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Eşq olsun Müzəffər Ali Baş Komandana! Yaşasın Azərbaycan xalqı! Eşq olsun rəşadətli Azərbaycan Ordusuna!

Peşə bayramımız günü münasibətilə bütün ədliyyə işçilərini təbrik edir, uğurlar arzulayıram.

**Aygün EMİNOVA,**
**4 saylı Bakı “ASAN xidmət” mərkəzində Ədliyyə Nazirliyinin qeydiyyat şöbəsinin rəisi, Şuşa rayon qeydiyyat şöbəsinin rəisi vəzifəsini müvəqqəti icra edən, kiçik ədliyyə müşaviri.**

# Tarixi Qələbəmiz ədliyyə və məhkəmə orqanları əməkdaşlarını ürəkdən sevindirir

**Noyabrın 22-də Azərbaycanda ədliyyə orqanlarının yaranmasının 102-ci ildönümü tamam olur. Respublikamıza rəhbərliyinin bütün dövrlərində insan hüquqlarının təminatını ali məqsəd kimi önə çəkən ümummilli lider Heydər Əliyevin 11 noyabr 2000-ci il tarixli sərəncamı ilə ədliyyə işçilərinə yüksək etimad göstərilib və bu tarix ədliyyə işçilərinin peşə bayramı günü elan edilib.**

Azərbaycan ədliyyəsinin şanlı tarixi 1918-ci il mayın 28-dən - Azərbaycan Xalq Cümhuriyyətinin elan edildiyi gündə Ədliyyə Nazirliyinin təsis edilməsi ilə başlayıb, təcrübəli dövlət xadimi Xəlil bəy Xasməmmədov ilk ədliyyə naziri təyin olunub. Həmin il noyabrın 22-də nazirliyin Əsasnaməsi təsdiq edilib, funksiya və səlahiyyətləri müəyyənləşdirilib.

Azərbaycanın ədliyyə və məhkəmə sisteminin çoxsaylı təmsilçiləri peşə bayramlarını bu il fərqli ovqatda - yüksək təntənə, milli qürur və fəxarət hissi ilə qeyd edirlər. 30 ildən çox müddətdə həllini tapmayan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin yekunlaşması, sentyabrın 27-dən etibarən başlayaraq? 44 gün davam edən Vətən müharibəsinin Azərbaycanın tam hərbi-siyasi qələbəsi ilə başa çatması hər bir azərbaycanlı kimi, bizi də ürəkdən sevindirir, qəlbimizi “dağa döndərir”.

Xatırladaq ki, Ermənistanın son 2 ildə sülh danışıqlarından faktiki olaraq imtina edərək Azərbaycana qarşı qəbuledilməz şərtlər irəli sürməsi, terrorçu qruplaşmaları, muzdlu döyüşçüləri işğal etdiyi ərazilərimizdə yerləşdirməsi, cəbhə bölgəsində və qoşunların təmas xəttində açıq təxribatlar törətməsi hərbi əməliyyatların bərpası ehtimalını zamanla daha da artırırdı. Bu azmış kimi son aylarda Şuşa şəhərində qondarma Dağlıq Qarabağ rejiminin “rəhbəri”nin “andiçmə mərasimi”nin təşkili, “Dağlıq Qarabağ parlamenti”nin Xankəndidən Şuşaya köçürülməsi barədə qərarın qəbulu düşmənin növbəti təxribatları, Azərbaycanı yeni müharibəyə təhrik etmək cəhdləri idi.

Nəhayət, Ermənistanın müharibəyə hazırlaşması ilə bağlı Azərbaycan Prezidenti cənab İlham Əliyevin beynəlxalq ictimaiyyəti xəbərdar etməsi, BMT-nin 75-ci sessiyasında videoformatda çıxışında açıq bəyanat verməsi fonunda həmsədr dövlətlərin gözləmə mövqeyi seçməsi 26 ildən sonra hərbi əməliyyatların yenidən başlamasına gətirib çıxardı. Sentyabr ayının sonlarına doğru Ermənistan silahlı qüvvələrinin cəbhə bölgəsi və qoşunların təmas xəttində yeni təxribatlar törətməsi, mülki əhalini və obyektləri ağır artilleriyadan atəşə tutması, dinc insanların öldürülməsi və yaralanması Azərbaycanın düşmənə əks-həmlə əməliyyatları ilə layiqli cavab verməsini qaçılmaz hərbi gedişə çevirdi. Azərbaycan Ordusu müasir hərbi əməliyyatlar üçün qeyri-adi sayılacaq yüksək dinamizmlə, cəmi ay yarım ərzində mürəkkəb coğrafi relyef şəraitində, eləcə də düşmənin uzun illər boyu yaratdığı möhkəm istehkam mühəndis qurğularını, beton sədlərini dağıtmaqla, 5 şəhəri, 4 qəsəbəni, 300-dək kəndi, o cümlədən tarixi Şuşa şəhərini işğaldan azad etməyə nail oldu.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 30 ildən artıq müddətdə davam edən tarixi ədalətsizliyə cəmi 44 gün ərzində son qoyan müzəffər Ordumuz düşmənə hərbi məğlubiyyətlə bağlı bəyanata imza atmaqdan savayı seçim qoymadı. Prezident İlham Əliyev müharibənin son günlərdə düşmənə sərt ültimatum verdi ki, Azərbaycanın hərbi əməliyyatları dayandırması üçün Ermənistanın baş naziri Kəlbəcər, Laçın və Ağdam rayonunun işğalda qalan hissəsini tez zamanda boşaldacağı ilə bağlı üzərinə öhdəlik götürməlidir. Aciz və çıxılmaz durumda olduğunu anlayan Ermənistan hərbi-siyasi rəhbərliyi hərbi kapitulyasiyasını imzaladığı 10 noyabr üçtərəfli bəyanatı ilə təsdiqlədi.

Azərbaycan son 44 gündə 30 illik işğal faktına siyasi, hüquqi və hərbi baxımdan son qoyub. Bu isə ölkəmizin bütün sahələrdə dinamik inkişafına, o cümlədən ədliyyə və məhkəmə-hüquq sahəsində indiyədək reallaşdırdığı islahatların uğurlu davamına yaxşı imkanlar açıb.

Heç şübhəsiz, ədalət meyarının hər bir cəmiyyətdə bərqərar olması, uca tutulması tarixən qanunçuluğun keşiyində dayanan, hüququn aliliyini rəhbər tutan səlahiyyət sahiblərinin, ilk növbədə, insan taleyi ilə bağlı qərar qəbul edən hakimlərin fəaliyyətindən asılıdır. Son 15 ildə Hakimlərin Etik Davranış Kodeksinin qəbul edilməsi, məhkəmə hakimiyyətinin hazırlıqlı və mənəvi cəhətdən saf hakimlərlə komplektləşdirilməsi üzrə tədbirlərin davam etdirilməsi, bütün məhkəmələrin tərkibinin təzələnməsi məhz bu reallıqlarla şərtlənib. Dövlət başçısı İlham Əliyevin müvafiq sərəncamları ilə respublika üzrə hakimlərin sayı 2 dəfədən çox artırılacaq 600 nəfər müəyyən edilib.

Ümumilikdə, son illər 400-dək hakimliyə namizəd test üsulunda uğur qazanaraq bu vəzifəyə təyin olunublar. Bu prosesin beynəlxalq norma və standartlara tam cavab verdiyi, ədalətli və şəffaf mexanizmlər əsasında reallaşdırıldığı Avropa Şurası və digər beynəlxalq təşkilatlar tərəfindən də etiraf olunub, Azərbaycan təcrübəsi digər ölkələrə nümunə kimi göstərilib. Məhkəmə-Hüquq Şurasının rəhbərliyi altında hakimlərin fəaliyyətinin qiymətləndirilməsinin daha şəffaf, obyektiv, çevik mexanizmləri müəyyənləşdirilməsi ədalət mühakiməsinin səmərəliliyini və keyfiyyətini artırır.

Məhkəmə hakimiyyətinin özünüidarə funksiyasını uğurla həyata keçirən Məhkəmə-Hüquq Şurasının məqsədyönlü fəaliyyəti nəticəsində yeni məhkəmələrin yaradılması və hakimlərin sosial müdafiəsinin gücləndirilməsi məsələləri xüsusi diqqət mərkəzində olub. Son 10 ildə məhkəmələrə müraciət imkanlarının yaxşılaşdırılması, inkişafı məqsədilə 20-dək yeni məhkəmələr, o cümlədən regional apelyasiya, ağır cinayətlər və inzibati-iqtisadi məhkəmələr yaradılaraq fəaliyyətə başlayıb.

Hakimlərin sosial rifahının yaxşılaşdırılması məsələsi də daim diqqət mərkəzində saxlanılmış, 2000-ci illə müqayisədə onların əməkhaqqı 30 dəfəyədək artırılıb. Azərbaycan Respublikası Prezidentinin 23 iyul 2019-cu il tarixli sərəncamı ilə təsdiq edilmiş “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda əksini tapmış bir sıra yeniliklər hakimlərin sosial-maddi təminatının gücləndirilməsinə xidmət edib.

Ölkəmizin dinamik inkişaf tempinə adekvat olaraq son illər məhkəmələrin yeni müasir binalarla təmin olunması da həyata keçirilən islahatların səmərliliyini təmin edir. Dünya Bankı tərəfindən dəstəklənən “Məhkəmə sisteminin müasirləşdirilməsi layihəsi” çərçivəsində Azərbaycanda xüsusi işlənilmiş və dünyada analoqu olmayan unikal proqram təminatı vasitəsilə 30-dək məhkəmənin yerləşəcəyi müasir bina və komplekslərin layihələri hazırlanmış, respublikamızın müxtəlif bölgələrində məhkəmələr üçün müasir binalar inşa olunub. Son illər Bakının Yasamal, Sabunçu, Nərimanov rayonlarında, habelə regionlardan - Gəncə, Oğuz, Gədəbəy, Şəki, Qəbələ və İmişlidə yeni məhkəmə kompleksləri inşa edilərək istifadəyə verilib.

Dövlətimizin başçısının 3 aprel 2019-cu il tarixli “Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında”fərmanı isə əhatə dairəsinə, məzmununa və əhəmiyyətinə görə bundan sonrakı mərhələdə həyata keçiriləcək məhkəmə-hüquq islahatları üçün Strateji Yol Xəritəsi rolunu oynayıb. Fərmana əsasən, Azərbaycan Respublikasının bütün məhkəmə sədrlərinə və hakimlərinə məhkəmə hakimiyyətinin nüfuzunun artırılması və cəmiyyətdə məhkəmələrə etimadın möhkəmlənməsi üçün fəaliyyətlərində ədalət, qanunçuluq, qərəzsizlik, aşkarlıq, hər kəsin qanun və məhkəmə qarşısında bərabərliyi kimi prinsiplərə dönmədən riayət etmək tövsiyə edilib.

Fərmanda “Elektron məhkəmə” informasiya sisteminin tətbiqi ilə əlaqədar təşkilati işlərin yekunlaşdırılması, mediasiya prosesinin tətbiqi ilə bağlı maarifləndirmə və təşviqat tədbirlərinin həyata keçirilməsi, Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin və Ədliyyə Akademiyasının fəaliyyətinin müasirləşdirilməsi, infrastrukturunun və maddi-texniki təchizatının yaxşılaşdırılması, birinci instansiya məhkəmələrində kargüzarlığın aparılması ilə bağlı dövlət büdcəsində nəzərdə tutulmuş vəsaitin birbaşa hakimlərin bank hesablarına köçürülməsi və digər məsələlərlə bağlı tövsiyə və tapşırıqlar verilib, məhkəmə hakimlərinin ümumi sayının 200 nəfər artırılması təmin edilib.

Fərmanla Ali Məhkəməyə, Məhkəmə-Hüquq Şurasına və Ədliyyə Nazirliyinə sahibkarlıqla bağlı mübahisələrə müvafiq sahədə daha dərin hüquqi bilik və təcrübəsi olan hakimlər tərəfindən baxılmasını təmin etmək məqsədilə vergi və gömrük ödənişləri, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi ilə bağlı yaranan mübahisələrə, habelə sahibkarlıq fəaliyyəti ilə əlaqədar digər məsələlərə dair işlər üzrə ixtisaslaşmış məhkəmənin yaradılması tapşırılıb. Bununla əlaqədar Məhkəmə-Hüquq Şurası tərəfindən inzibati və kommersiya məhkəmələrinin formalaşdırılması təmin edilib.

Azərbaycanda vətəndaşların mənafeləri əsas götürülməklə həyata keçirilən məhkəmə-hüquq islahatları hər zaman zamanın aktual çağırışlarına adekvat olması ilə diqqəti cəlb edib. Koronavirus pandemiyasının bəşəriyyəti ciddi şəkildə təhdid etdiyi, dünyanın ən inkişaf etmiş ölkələrini ciddi sınaqla üz-üzə qoyduğu bir zamanda biz növbəti dəfə bu reallığın əyani şahidi oluruq. Xalqın genefondunun qorunması, insanların sağlamlığının təmini, ümumən ölkəmizin milli təhlükəsizliyinin gücləndirilməsi məramı önə çəkilməklə həyata keçirilən qabaqlayıcı tədbirlər digər əhəmiyyətli sahələr kimi, məhkəmə-hüquq sferasını əhatə edir. Məqsəd, ilk növbədə, xüsusi karantin rejimi ilə əlaqədar tətbiq edilən sosial təcrid tədbirlərinin səmərəliliyini təmin etmək, bununla bağlı cəmiyyətdə nizam-intizamın, hüquq qaydalarının daha da gücləndirilməsinə nail olmaqdır.

Onu da bildirək ki, koronavirus infeksiyasının yayılması ilə əlaqədar son aylar tətbiq edilmiş xüsusi karantin rejimində qanunçuluğun, hüquq qaydalarının, nizam-intizamın daha da möhkəmləndirilməsi, eləcə də pandemiyanın qarşısının alınmasında vətəndaş məsuliyyətinin artırılması baxımından qanunvericiliyə edilmiş əlavə və dəyişikliklər də son dərəcə əhəmiyyətlidir. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə, eləcə də Cinayət Məcəlləsinə edilmiş əlavə və dəyişikliklər mahiyyətcə karantin rejimi qaydalarının pozulmasına görə hüquqi məsuliyyətin artırılmasına, beləliklə həm də Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrindən irəli gələn tədbirlərin reallaşdırılmasına xidmət edib.

Pandemiya dövründə məhkəmələrin fəaliyyətinin tənzimlənməsi və təşkili baxımından Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 23 aprel 2020-ci il tarixli “Azərbaycan Respublikasında koronavirus (COVİD-19) infeksiyasının yayılması təhlükəsinin qarşısının alınması məqsədi ilə məhkəmələrdə həyata keçirilməsi zəruri olan tədbirlər haqqında” Qərarın da müstəsna əhəmiyyəti olub. Qərar Nazirlər Kabineti yanında Operativ Qərargahın müəyyən etdiyi sosial təcrid qaydalarına məhkəmələrin fəaliyyətində tam riayət edilməsinə imkan yaradıb.

Qərarla Azərbaycan Respublikasının bütün məhkəmələrinə 20 aprel 2020-ci il tarixdən 04 may 2020-ci il tarixədək təxirəsalınmaz qaydada baxılmalı olan, yaxud məhkəmə baxışının keçirilməsini tələb etməyən işlərə (qətimkan tədbirlərinin seçilməsi, uzadılması, dəyişdirilməsi, ləğvi, inzibati həbs nəzərdə tutulan işlər, zəruri hallarda hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında müraciətlər, iddianın təmin tədbirlərinin görülməsi, əmr icraatı, kiçik iddialara dair işlər üzrə sadələşdirilmiş icraat, bəzi kateqoriya üzrə xüsusi icraat işləri və sair) baxılması istisna olunmaqla, icraatlarında olan digər işlərə baxılmasını müvəqqəti təxirə salmaq tövsiyə edilmişdi. Qərarın 1.2-ci bəndinə görə, Azərbaycan Respublikası İnzibati-Prosessual Məcəlləsinin 16-cı maddəsinin tələbləri nəzərə alınmaqla inzibati məhkəmə icraatı qaydasında baxılan işlərə şifahi məhkəmə baxışı (şifahi dinləmələr) keçirilmədən baxılması imkanlarından istifadə edilməsi tövsiyə olunmuşdu.

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 23 aprel 2020-ci il tarixli Qərarında məhkəməyədək icraat zamanı barələrində həbs qətimkan tədbiri seçilmiş təqsirləndirilən şəxslər haqqında cinayət işlərinin məhkəmələrin icraatına qəbul edilməsi; hakimlərin və məhkəmə aparatı işçilərinin iş rejimi ilə bağlı Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyələrindən irəli gələn digər zəruri məsələlərin həlli tövsiyə edilmişdi. Eyni zamanda, Qərara görə, bütün məhkəmələrdə vətəndaşların qəbulunun dayandırılması, qəbulun yalnız telefon, mobil və internet rabitəsi vasitəsi ilə həyata keçirilməsi təmin olunub. Fiziki və hüquqi şəxslərə məhkəmələrə ünvanlanmış ərizələrini, o cümlədən apelyasiya və kassasiya şikayətlərini poçt vasitəsilə və ya elektron şəkildə göndərmələri tövsiyə edilib.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin 06 aprel 2020-ci il tarixli “Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında” Sərəncamı isə pandemiya dövründə yaşı 65-i ötmüş vətəndaşlara humanist və insanpərvər münasibətin əyani təzahürü olub. Koronavirus infeksiyasının yayılması ilə əlaqədar yaşına və səhhətinə görə xüsusi qayğıya ehtiyac duyan yaşı 65-dən yuxarı olan məhkumların və onların ailə üzvlərinin müraciətləri, eləcə də məhkumların sağlamlıq vəziyyəti, cəza çəkdikləri müddətdə davranışları nəzərə alınaraq, belə bir vacib humanist sərəncam imzalanıb, 176 nəfər məhkum cəzalarının çəkilməmiş hissəsindən azad olunub.

Hüquq ictimaiyyəti koronavirusla mübarizə tədbirlərinə fəal dəstək göstərərək Prezident cənab İlham Əliyevin “Azərbaycan Respublikasında əhalinin sağlamlığının qorunması və koronavirus infeksiyasına qarşı mübarizənin gücləndirilməsi ilə bağlı tədbirlər haqqında” 19 mart 2020-ci il tarixli Fərmanına əsasən yaradılmış Koronavirusla Mübarizəyə Dəstək Fonduna könüllü ianələr edib.

**Bu günlərdə Azərbaycan xalqı müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə əldə olunmuş tarixi Qələbəni böyük sevinc hissi ilə qeyd edir, gələcəyə daha nikbin baxır. 30 ildən sonra tarixi ədalətin bərpasına nail olan xalqımız özünə inamını tam bərpa edib. Azərbaycan xalqı alternativsiz lideri olan cənab İlham Əliyevi intibahın, siyasi sabitliyin, əmin-amanlığın və həmrəyliyin qarantı hesab edir, ona tam güvənir. Azərbaycanın mənafelərinə xidmət göstərən amalların həyata keçirilməsində öz rəhbərinə dəstəyini əsirgəmir. Çünki xalq həyatında, taleyində baş vermiş böyük dəyişikliklərin, bizi Azərbaycanın parlaq, firavan sabahına aparan siyasi kursun alternativsizliyini yaxşı dərk edir, bu siyasəti birmənalı dəstəkləyir.**

**Rasim KAZIMOV,**
**Gəncə şəhəri, Nizami Rayon Məhkəməsinin sədri.**

# ƏDLİYYƏ SİSTEMİ İNKİŞAF YOLLARINDA

**Müstəqil Azərbaycan şanlı, şərəfli tarixi günlərini yaşayır. Yurdumuzun hər yerində qələbə sevinci, bayram ab-havası hökm sürür. Möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyilə qüdrətli ordumuzun qazandığı zəfərlər, işğal altında olan torpaqlarımızın düşməndən azad edilməsi xalqımıza böyük sevinc, yüksək əhval-ruhiyyə bəxş etmişdir. Məhz belə tarixi günlərdə Azərbaycan ədliyyəsinin yaradılmasının 102 illiyini qeyd edirik.**

Ölkəmizdə ədliyyə sistemi xalqımızın müstəqillik uğrunda mübarizəsini, onun şanlı keçmişini əks etdirən zəngin tarixə malikdir. Dövlətimizin ədliyyə tarixinin ən şərəfli anları 1918-ci ildə Azərbaycan Demokratik Respublikasının yaranması ilə başlanır. Ədliyyə Nazirliyi öz işinə ilk növbədə ədliyyə strukturlarının, məhkəmələrin və istintaq sahələrinin bərpası ilə başlamış, gərgin fəaliyyət nəticəsində məhkəmə aparatları tədricən bərpa edilmiş, binalar qaydaya salınmış, çətinliklə də olsa hüquq ədəbiyyatı kitabxanası yaradılaraq 6 aylıq hüquq kursları təşkil edilmişdir. Həmçinin, ədliyyə orqanları və məhkəmələrin fəaliyyəti ilə bağlı bir sıra qərarlar qəbul edilmiş, o cümlədən 1918-ci il noyabrın 14-də Azərbaycan Məhkəmə Palatasının Əsasnaməsi, noyabrın 22-də isə Ədliyyə Nazirliyinin Əsasnaməsi təsdiq edilmişdir.

Azərbaycan Demokratik Respublikası 1920-ci il aprel ayının 27-28-də sovet hökumətinin XI qızıl ordusu tərəfindən işğal edildikdən sonra inqilab komitəsinin 1920-ci il 13 may tarixli qərarı ilə Ədliyyə Nazirliyi ləğv edilmiş, Xalq Ədliyyə Komissarlığı yaradılaraq, onun səlahiyyətlərinə qanunvericilik layihələrinin hazırlanması, məhkəmə işçilərinin seçilməsi, təlimatlandırılması və onlara inzibati rəhbərlik edilməsi, qanunçuluğa ali nəzarət və istintaqın aparılması daxil edilmişdir. Lakin 1930-cu ildə bu komissarlıq ləğv edilərək onun funksiyaları prokurorluq, Ali Məhkəmə, Mərkəzi İcraiyyə Komitəsinə və digər orqanlara verilmişdir.

1933-cü ildə məhkəmələrin, prokurorluğun, istintaqın birləşdirilməsi, vahid məhkəmə siyasətinin həyata keçirilməsi, bütün hakimiyyət orqanlarının, təsərrüfat müəssisələrinin, ictimai birliklərin və fiziki şəxslərin hərəkətlərinin qanuniliyini müşahidə etmək məqsədi ilə Xalq Ədliyyə Komissarlığı yenidən təşkil edilmiş, onun səlahiyyətinə müvafiq qanun layihələrinin hazırlanması, qanunların şərhi, məhkəmə kadrlarının hazırlanması, əhaliyə hüquqi yardımın təşkili, penitensiar sistemin idarə olunması, Ali Məhkəməyə, dövlət prokurorluğuna və vəkillərə rəhbərlik etmək funksiyaları daxil edilmişdir.

1937-ci ildə Xalq Ədliyyə Komissarlığının yeni Əsasnaməsi təsdiq edilmiş, onun səlahiyyətləri xeyli məhdudlaşdırılmış, əsas fəaliyyət sahəsi məhkəmə və notariat orqanlarının işinin təşkili və onlara rəhbərlik etməkdən ibarət olmuşdur. 1959-cu ildə Ədliyyə Komissarlığı yenidən ləğv edilmiş, məhkəmə orqanlarının fəaliyyətinə rəhbərlik və nəzarət, məhkəmə statistikasının aparılması Ali Məhkəməyə həvalə edilmiş, Nazirlər Soveti yanında Hüquq Komissiyası təşkil olunmuş və bununla da Ədliyyə Komissarlığının səlahiyyətləri ayrı-ayrı dövlət orqanları arasında bölüşdürülmüşdür.

Sovet hakimiyyəti illərində ifrat mərkəzləşdirilmiş hakimiyyətə alüdəçilik, ayrı-ayrı dövrlərdə ədliyyə orqanlarından repressiya aləti kimi istifadə edilməsinə yönələn dövlət siyasəti, bu orqanların dəfələrlə ləğv edilib yenidən yaradılması ədliyyə sisteminin sabit struktura malik olmasına və işinin təşkilinə maneçilik törədirdi.

Ədliyyə Nazirliyinin yenidən yaradılması görkəmli dövlət xadimi, ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrə təsadüf edir. 1970-ci il oktyabrın 27-də Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Ədliyyə Nazirliyi təsis edilmiş və bununla da ölkəmizin ədliyyə tarixində yeni mərhələ başlanmışdır. Ədliyyə Nazirliyi sabit fəaliyyət göstərərək məhkəmə orqanlarına təşkilati rəhbərliyi həyata keçirmiş, əhaliyə hüquqi yardımı yaxşılaşdırmış, notariat fəaliyyətinin və məhkəmə ekspertizalarının aparılmasını təmin etmiş, ümumiyyətlə, ədliyyə işi təkmilləşdirilərək gələcək inkişafı üçün zəmin yaranmışdır.

Azərbaycan yenidən dövlət müstəqilliyi əldə etdikdən və ulu öndər Heydər Əliyev ikinci dəfə ölkə rəhbərliyinə gəldikdən sonra ədliyyə orqanlarının işinin müasir tələblər səviyyəsinə qaldırılması üçün əsaslı tədbirlər həyata keçirilmiş, Ədliyyə Nazirliyinin cəmiyyətdə rolu və əhəmiyyəti artmış, səlahiyyət dairəsi genişlənmişdir. Ədliyyə işçilərinin peşə bayramı gününün müəyyən edilməsinə təşəbbüs göstərilərək dövlət başçısına müraciət edilmiş və ümummilli lider Heydər Əliyevin 2000-ci il 11 noyabr tarixli sərəncamı ilə 22 noyabr - Ədliyyə işçilərinin peşə bayramı günü kimi müəyyən edilmişdir. Ümummilli lider Heydər Əliyevin qətiyyəti və siyasi iradəsi sayəsində ölkədə ictimai-siyasi sabitliyin təmin edilməsinə, demokratik dövlət quruculuğuna, o cümlədən, məhkəmə-hüquq islahatlarına başlanılmışdır. Ölkəmizdə beynəlxalq standartlara cavab verən qanunvericilik bazası yaradılmış, demokratik prinsiplərə əsaslanan yeni məhkəmə sistemi təsis edilmiş, ədliyyə orqanlarının səlahiyyətləri genişləndirilmiş və onun qarşısında yeni vəzifələr qoyulmuş, şəffaf prosedurlar əsasında peşəkar hakim və ədliyyə korpusu formalaşdırılmışdır.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2006-cı il 19 yanvar və 17 avqust tarixli fərmanları ilə məhkəmə və ədliyyə orqanlarının inkişafının yeni mərhələsi müəyyən edilmiş, məhkəmə-hüquq sisteminin müasir dövrün tələblərinə uyğun olaraq təkmilləşdirilməsinə, ölkəmizin regionlarında hüquq infrastrukturunun genişləndirilməsinə şərait yaradılmışdır. İslahatların bu mərhələsində məhkəmə və ədliyyə orqanlarının inkişafının əsas məqsədləri əhalinin hüquqi təsisatlara və hüquqi yardıma tələbatının ödənilməsi, yeni nəsil hakim və hüquqşünasların formalaşdırılması, məhkəmələrin müstəqilliyinin və məhkəmələrə inamın artırılması, məhkəmələrə və ədliyyə orqanlarına müraciət imkanlarının asanlaşdırılmasıdır. Əhaliyə göstərilən notariat və digər hüquqi xidmətlərin, hüquqi və fiziki şəxslərin dövlət qeydiyyatının, məhkəmə ekspertizasının, penitensiar müəssisələrin və məhkəmə icraçılarının işinin müasir tələblər səviyyəsində qurulması da ümdə vəzifə kimi qarşıya qoyulmuşdur.

Dövlətimizin başçısı cənab İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə 2004-cü ildən etibarən məhkəmə sisteminin daha da müasirləşdirilərək Avropa standartlarına tam uyğunlaşdırılması işinə başlanılmışdır. Bu məqsədlə yeni qanunvericilik bazası yaradılmış, hakimlərin müddətsiz - son yaş həddinədək təyinatı, onların fəaliyyətlərinin qiymətləndirilməsi və intizam məsuliyyətinin təkmil əsasları təsbit olunmuş, hakimlərin seçiminin Avropada ən mütərəqqi qaydaları müəyyən edilmişdir. Əhalinin məhkəmələrə müraciəti prosedurunun daha da sadələşdirilməsi məqsədilə təkcə son iki ildə 12 yeni regional məhkəmə yaradılmış, hakimlərin sayı 2 dəfə artırılmışdır. Azərbaycanda aparılan məhkəmə islahatları nüfuzlu beynəlxalq qurumlar tərəfindən də təqdir edilir və dəstəklənir. Beynəlxalq təşkilatlarla əməkdaşlıq və işgüzar əlaqələr səmərəli nəticələr verir.

Ədliyyə Nazirliyi 102 illik tarixi dövr ərzində zəngin, keşməkeşli yol keçərək müasir inkişaf mərhələsinə çatmış, dövlətin hüquq siyasətini həyata keçirən orqana çevrilmiş, səlahiyyətləri xeyli genişlənmiş, cəmiyyətdə nüfuzu daha da yüksəlmişdir.

Ulu öndərin şah əsəri olan müstəqil Azərbaycan bu gün ölkə Prezidenti cənab İlham Əliyevin qətiyyəti, yenilməz sərkərdə cəsarəti və diplomatik məharəti sayəsində çağdaş tarixinin şanlı mərhələsini yaşayır. Otuz ilə yaxın mənfur erməni işğalçılarının əsarətində olan doğma Qarabağımız, dədə-baba torpaqlarımız Ali Baş Komandanın rəhbərliyi ilə müzəffər ordumuz tərəfindən azad edilmiş, ərazi bütövlüyümüz bərpa olunmuşdur.

Bir neçə ay bundan əvvəl “Qarabağ Ermənistandır” deyən, işğal altında olan torpaqlarımızda ardıcıl təxribatlar törədən, sərxoş vəziyyətdə Şuşa şəhərində yallı gedən və sərsəm bəyanatlar verməkdən utanmayan Ermənistanın baş naziri Nikol Paşinyan Azərbaycan Prezidentinin qətiyyəti qarşısında diz çökərək məğlubiyyətini etiraf etmişdir. Ali Baş Komandanımız, Azərbaycan Ordusu, igid əsgərlərimiz Paşinyan hakimiyyətini elə dalana diriyiblər ki, nə edəcəyini bilmir. Erməni xalqı Qarabağ kartı üzərində hakimiyyətə gələn Koçaryanların, Sarkisyanların, Paşinyanların iç üzünü vaxtında görmədiyi üçün illərlə bu qatillərin yağlı dillərinə, yalan vədlərinə, saxta bəyanatlarına inanmış, xülyalara uymuş və uçuruma yuvarlanmışdır.

Azərbaycan xalqının faciəsi, insanların qanı üzərində hakimiyyətə gələn, havadarlarına arxalanaraq soyqırımlar, saysız-hesabsız qətllər törədən Ermənistanın hərbi-siyasi rəhbərliyi öz xalqını da ağır vəziyyətə salmışdır. Təcavüz yolu tutan Ermənistanın iqtisadiyyatı tamamilə çökmüş, ölkə beynəlxalq aləmdə nüfuzunu itirmiş, siyasi qarşıdurmalar, terror yuvasına çevrilmişdir.

Qondarma “Dağlıq Qarabağ respublikası” xülyası Ermənistan rəhbərlərinin siyasi fəaliyyətinin əsasını təşkil etmiş və bu vasitə ilə öz xalqını aldadıb tora salmışdır. Amma indi onların özləri də tora düşmüşlər. Xalqın malını, dövlətini taladıqlarına, onlara qəsd etdiklərinə, öldürdüklərinə, incitdiklərinə görə Koçaryan, Sarkisyan, Paşinyan kimi insan qatilləri öz cəzalarını çəkməlidirlər. Axı, onlar qondarma Dağlıq Qarabağ uğrunda döyüşlərdə nəinki Azərbaycan xalqının övladlarına qəsd etmiş, eləcə də minlərlə erməninin ölümünə səbəb olmuşlar. Bu qatillər Dağlıq Qarabağın əzəli Azərbaycan torpağı olduğunu bilməmiş deyildilər.



Fransada çıxan jurnalların birində “Hücumdan öncə” yazısını çap etdirən erməni jurnalist Bolain Sirasyan yazır: “Xocalını gözlərimlə gördüm. Hər yerdən qan iyi gəlirdi. Qar üstündəki kimsəsiz, sahibsiz cəsədlərdən qorxdum. Qorxdum ki, bu gün üçün heç vaxt Azərbaycan tərəfi, sabahkı nəsillər susmayacaq”.

Erməni jurnalistin dediyi o gün gəlib çatdı. Erməni təcavüzkarları, insan qatilləri Azərbaycan Prezidentinin, Ali Baş Komandan cənab İlham Əliyevin kəskin, qətiyyətli çıxışlarını, bəyanatlarını, tövsiyələrini eşidir, sülh yolunda atdığı addımlarını görürdülər. Onlar isə öz yollarından dönmür, insanları qırğına verməkdən çəkinmir, dinə-imana gəlmirdilər. Çünki babalarından qaniçən, cəllad, qəddar, xəyanətkar ruhda tərbiyə alıblar. Axı, onlar daşnak ideoloqu, türkün, azərbaycanlıların qanını hər an içməyə hazır olan və bunu bütün əsərlərində, çıxışlarında açıq-aydın ifadə edən, azərbaycanlı uşaqların başına gətirilən müsibətlərdən həzz alan zori balayanların yetirmələridirlər.

Balayanın yazdığı bu cümlələr ermənilərin əxlaqını, niyyətini, qaniçən əməllərini, alçaq sifətini ortaya qoyur: “Biz Xaçaturla ələ keçirdiyimiz evə girərkən əsgərlərimiz 13 yaşlı bir türk uşağını pəncərəyə mismarlamışdılar. Türk uşağı çox səs-küy salmasın deyə, Xaçatur uşağın anasının kəsilmiş döşünü onun ağzına soxdu. Daha sonra 13 yaşındakı türkün başından, sinəsindən və qarnından dərisini soydum. Saata baxdım, türk uşağı 7 dəqiqədən sonra qan itirərək dünyasını dəyişdi. Ruhum sevincdən qürurlandı. Xaçatur daha sonra ölmüş türk uşağının cəsədini hissə-hissə doğradı, bu türklə eyni kökdən olan itlərə atdı. Axşam eyni şeyi daha 3 türk uşağına etdik. Mən bir erməni kimi öz vəzifəmi yerinə yetirdim. Bilirdim ki, hər bir erməni hərəkətlərimlə fəxr duyacaq”. Məhz bu qəddarlığa, vəhşiliyə görə də Azərbaycan Prezidenti, Ali Baş Komandan öz sözünü dedi, ordumuz düşmənə yerini göstərdi. Qələbə bizimlədir və biz haqq mübarizəsində qalib gəldik.

Ermənistanın məğlub olması Azərbaycan-Rusiya-Ermənistan rəhbərlərinin üçtərəfli bəyanatlarından da aydın görünür. Biz döyüşlərdə böyük uğurlar qazanmağımıza, düşməni demək olar ki, məhv etməyimizə baxmayaraq, Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev bir daha bəşəri dəyərlərə, beynəlxalq hüquq normalarına, sülhsevər təşəbbüslərə sadiqliyini nümayiş etdirdi, qan axıdılmasının, insan itkisinin, tələfatın tərəfdarı olmadığını bütün dünyaya göstərdi. Halbuki ordumuz, igid əsgər və zabitlərimiz zəfər yürüşünü davam etdirə, düşmənin qalan qüvvələrini bir neçə gün ərzində məhv edə bilərdi. Ancaq ölkəmizin başçısı erməni analarını bir daha gözüyaşlı qoymaq istəmədi, zorla müharibəyə cəlb edilən gənclərə, yaşlılara qıymadı. Bu, böyük insanpərvərlik, ali hisslərə sahib olmaq, düşmən də olsa, insanı dəyərləndirmək nümunəsidir.

İmzalanmış bəyanat bir daha erməni əsgərlərini ölümdən qurtardı, müharibəni, insan tələfatını dayandırdı. Ermənistanın məğlub olmasını təsdiqlədi. Digər tərəfdən, azad olunmamış müəyyən kənd və rayonlarımızın sülh yolu ilə qaytarılmasına imkan yaratdı. Ermənistana məxsus ərazidən Azərbaycanla Naxçıvanın quru yolla əlaqə saxlaması üçün yol çəkilişi mühüm hadisə kimi qiymətləndirilməlidir. Bu bəyanat Azərbaycanın mənafeyinə, gələcək proseslərin həyata keçirilməsinə tam uyğundur və dövlətimizin mövqeyini əks etdirir. Bunu dövlətimizin başçısı İlham Əliyev xalqa müraciətində, çıxışlarında xatırlatmış və zamanın bizim xeyrimizə işlədiyini bildirmişdir. Prezident İlham Əliyev 44 gün ərzində beynəlxalq təzyiqləri layiqincə dəf edərək bir daha bütün dünyaya göstərdi ki, biz müstəqil siyasət yürüdürük, heç bir qüvvə Azərbaycanı haqq yolundan döndərə bilməz.

Bu gün xalqımız böyük sevinc içindədir. Dağlar diyarı Lerikdə də şanlı Qələbəmiz böyük coşqu ilə qeyd edilir. Bütün leriklilər kimi rayon məhkəməsinin kollektivi də uzun müddət gözlədiyimiz bu böyük Qələbə sevincini bizə yaşatdığına görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevə ürəkdən, bütün varlığı ilə təşəkkür və minnətdarlığını bildirir.

**Atabəy KİÇİBƏYOV,**
**Lerik Rayon Məhkəməsinin sədri.**